# 2020-cu il üzrə İnklüziv Təhsil Mərkəzi tərəfindən görülmüş işlər haqqında hesabat

## Amin Fərəczadə: Maneələrə baxmadan məqsədə doğru inamla irəliləmək ən düzgün yoldur

***AZƏRTAC***

***Sağlamlıq imkanları məhdud gənclər qarşıya qoyduqları məqsədə doğru inamla irəliləsələr və öz hədəflərinə çatmaq üçün üzləşdikləri maneələri israrla keçsələr, onlarda heç bir kompleks qalmayacaq.***

Bu sözləri Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Distant, Qiyabi və Əlavə Təhsil Mərkəzində biznesin idarə edilməsi ixtisası üzrə təhsil alan üçüncü kurs tələbəsi, fakültə Tələbə Elmi Cəmiyyətinin sədri Amin Fərəczadə AZƏRTAC-a müsahibəsində deyib. O, qeyd edib ki, hələ məktəbdə oxuduğu illərdə biznes sahəsinə maraq göstərib və bu sahə üzrə mükəmməl təhsili məhz UNEC-də ala biləcəyinə əmin olub: "Burada təhsil almaq mənə seçdiyim ixtisasa yiyələnməklə yanaşı, sosial həyatımın da genişlənməsinə imkan verir. Hazırda Tələbə Elmi Cəmiyyətində fəaliyyət göstərir, çoxşaxəli tədbirlər təşkil edirik. Bu, mənə gələcəkdə uğurlu addımlar atmaq üçün mühüm təcrübə qazandırır".

A.Fərəczadə bildirib ki, ali təhsil ocağında fəaliyyət göstərən İnklüziv Təhsil Mərkəzinə qayğıya ehtiyacı olan tələbələr tez-tez müraciət edirlər: "Mərkəzdə sağlamlıq imkanları məhdud tələbələrin imtahanlara hazırlaşması üçün hər cür şərait yaradılıb. Sağlamlığımda müəyyən problemlər olduğuna görə imtahanların keçirildiyi otaqlara getmədən imtahanları mərkəzdə verirəm. Burada, həmçinin müxtəlif maarifləndirici təlim və seminarlar təşkil olunur. İnklüziv Təhsil Mərkəzinin işində yaxından iştirak etsəm də, əsas fəaliyyətim universitetin Tələbə Elmi Cəmiyyətindədir. Hazırda tələbələr arasında "ATHENA" adlı bilik yarışını keçiririk".

Amin Fərəczadə: Maneələrə baxmadan məqsədə doğru inamla irəliləmək ən düzgün yoldur (unec.edu.az)

## "UNEC ailəsində bərabərlik və birlik uğurlu inkişafın amilləridir"

***AZƏRTAC***

*Demokratik dəyərlərə və humanist prinsiplərə əsaslanan cəmiyyətlərdə yaşından, sağlamlıq durumundan asılı olmayaraq insanlara daim həssas və qayğı ilə yanaşılır. Bu, sadəcə sıradan tədbirlərlə deyil, müvafiq dövlət qanunları, konkret əməli işlərlə müşahidə edilir. Azərbaycan*

*müstəqilliyinə qovuşana kimi də cəmiyyətdə bu istiqamətdə konkret nəticələrin şahidi olub. Belə desək, mental dəyərlərimiz sağlamlıq imkanları məhdud olan insanların cəmiyyətə adaptasiyası məsələsində həssaslığını hər zaman qoruyub saxlayıb. Bunun ən böyük nümunəsinin ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərlik etdiyi hər iki dönəmdə şahidi olmuşuq. Ümummilli liderimizin layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev isə bu istiqamətdə islahatları yeni çalarlarla zənginləşdirib. Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" nda inklüziv təhsilə geniş yer ayrılıb. "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" nda təhsil müəssisələri qarşısında duran vəzifələr müəyyən edilib və konkret məsələlər qoyulub.*

*Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) 5 ildir ki, fəaliyyət göstərən İnklüziv Təhsil Mərkəzi bu istiqamətdə çoxşaxəli fəaliyyəti ilə seçilir. AZƏRTAC mərkəzin koordinatoru Sevinc Məhsimovanın müsahibəsini təqdim edir.*

**- UNEC-də humanist dəyərlərə xidmət edən mərkəz hansı zərurətdən yarandı?**

-İnklüziv təhsil cəmiyyətdəki mövqe, status, dil və dinindən, irqindən asılı olmayaraq, hər kəs üçün yaradılan bərabər təhsil imkanıdır. İnklüziv təhsil əlilliyi olan və ya olmayan bütün gənclərin bərabər təhsil almaq hüquqlarını təmin edir. Azərbaycanda inklüziv təhsilə keçid addımlarının icrasına 2005-ci ildən başlanılıb. İnklüziv şəraitin yaradılması və sağlamlıq imkanları məhdud olan tələbələr üçün ali təhsil səviyyəsinin əlçatanlılığının yüksəldilməsi məqsədilə 2013-cü ildə Azərbaycan Dövlət İqtisadi Universiteti Xəzər Universitetinin koordinatoru olduğu "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" TEMPUS layihəsinə tərəfdaş olaraq qoşulub və 2014-cü ildən mərkəzin qurulmasına başlanılıb. Həmin il Azərbaycan Dövlət İqtisadi Universitetində sağlamlıq imkanları məhdud olan 26 tələbə təhsil alırdı. 2015-ci ilin iyulunda UNEC-də İnklüziv Təhsil Mərkəzi rəsmi fəaliyyətə başlayıb. İndi isə UNEC-də sağlamlıq imkanları məhdud 62 gənc təhsil alır.

Bizim mərkəzin əsas məqsədi sağlamlıq imkanları məhdud olan tələbələrin təhsil imkanlarının artırılmasından və təhsilə tam inteqrasiya edilməsindən ibarətdir. Mərkəzdə görmə məhdudiyyəti olan tələbələr üçün Brayl əlifbasında çap edən printer, müxtəlif yazıdan audioformata çevirən kompüter proqramları və s. var. Tələbələr istədikləri vaxt gəlib Mərkəzdə dərslərinə və imtahanlara hazırlaşa bilirlər. Mərkəzdə xüsusi qayğıya ehtiyacı olan tələbələrə həm Brayl formatında, həm audio formatda tədris materialları təqdim edirik. Onlara əlavə dərslər keçirilir, imtahan prosesində müxtəlif səbəblərdən iştirak edə bilməyən tələbələr üçün imtahanlar təşkil olunur. Bunun üçün mərkəz bütün lazımi avadanlıqlarla təchiz olunub.

**- İnklüziv təhsil istiqamətində qurulan əməkdaşlıq əlaqələri haqqında nə deyə bilərsiniz?**

- UNEC-in əməkdaşları daim öz fəaliyyətini təkmilləşdirən, beynəlxalq təcrübəni öyrənən mütəxəssislərdir. Onlar xarici ölkələrdə inklüziv təhsil sahəsində də keçirilən təlimlərdə iştirak edirlər. İnklüziv Təhsil Mərkəzi bu istiqamətdə daim araşdırmalar aparır və öndə gedən xarici təşkilatların təcrübələrini universitetdə tətbiq etmək üçün şərait yaradır. Mütəmadi olaraq dünyanın müxtəlif ölkələrinin təşkilatları ilə əməkdaşlıq qurulur. Böyük Britaniya, Türkiyə, İrlandiya, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Makedoniya, Polşa, Belarus, Ukrayna və Rusiya kimi ölkələrin universitetləri ilə əməkdaşlığımız var. Rusiyanın inklüziv təhsil sahəsində aparıcı universiteti olan Moskva Dövlət Humanitar və İqtisad Universiteti ilə ikili diplom proqramları tətbiq olunur. Xüsusi qayğıya ehtiyacı olan tələbələr, eyni zamanda, Erasmus proqramları çərçivəsində xarici universitetlərdə təhsil alırlar.

**- Mərkəz daha hansı istiqamətlərdə xidmət göstərir?**

- Bizim fəaliyyətimizi əks etdirən sosial şəbəkələr var. UNEC-in rəsmi saytında İnklüziv Təhsil Mərkəzi adında bölüm daim yenilənən xəbərləri cəmiyyətə təqdim edir. Radio UNEC-də "İnklüziv təhsil" adında həftəlik veriliş yayımlanır və gənclər arasında maarifləndirmə işi aparılır. Əlilliyi olan tələbələr digər tələbə yoldaşları ilə birlikdə konsert, kino, teatr və gəzintilərə gedirlər. UNEC tələbələri bütün tədbirlərdə iştirak edirlər.

Əsas məqamlardan biri valideynlərlə işdir. Bəzən valideynin dəstəyə daha çox ehtiyacı olur. Mütəmadi olaraq valideynlərlə görüşüb, həmin tələbələr üçün daha yaxşı nələr edə bilərik deyə, gələcək fəaliyyətimizin planlarını müzakirə edirik.

Qeyd edim ki, bizim işimiz inklüziv təhsil imkanları yaratmaqla bitmir. Biz ali təhsil aldıqdan sonra gənclərin sosial həyata davam etməsində onlara dəstək göstərmək, onları imkan daxilində işlə təmin etməyə çalışırıq. Belə ki, respublikanın bir neçə qurumu bizim əlilliyi olan məzunlarımızı işə qəbul edib. Məsələn, 2018-ci il mayın 5-də Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əlil Təşkilatları İttifaqı və Azərbaycan Dövlət İqtisad Universitetinin birgə təşkilatçılığı ilə əlilliyi olan gənclər üçün əmək yarmarkası keçirilib. Bu yarmarka çox ciddi dəyişikliklərə səbəb oldu. Artıq hər bir qurum və təşkilat əlilliyi olan gəncləri işə qəbul edə biləcəyini bilir və bunun üçün imkanlar yaradır.

UNEC İnklüziv Təhsil Mərkəzi respublikanın bir çox təşkilatı ilə birgə müxtəlif layihələr həyata keçirir. Bu geniş fəaliyyətdə, təbii ki, bizə hər addımda kömək edən könüllü tələbələri qeyd etməliyəm. Könüllülər hər zaman yanımızda, hər tədbirdə və işdə bizə dəstək olur və əlilliyi olan tələbələrin cəmiyyətə inteqrasiya olmasında böyük rol oynayırlar.

**- Gələcək fəaliyyətiniz hansı istiqamətləri əhatə edəcək?**

- Fəaliyyətimizin növbəti mərhələlərində dövlət qurumları, digər tədris müəssisələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın gücləndirilməsi, Mərkəzin fəaliyyətini əks etdirən broşür və bukletlərin yenilənməsi, maarifləndirici təlimlər və görüşlərin təşkil edilməsi nəzərdə tutulur. Bizim Mərkəz daim inkişaf edir. Xarici təşkilatlarla birgə bir neçə layihə hazırlanıb və yaxın zamanda həyata keçirilməyə başlanacaq.

Son olaraq, qürurla qeyd edə bilərəm ki, UNEC inklüziv ali təhsil sahəsində nümunəvi müəssisə olmaq yolunda böyük addımlarla irəliləyir.

"UNEC ailəsində bərabərlik və birlik uğurlu inkişafın amilləridir"

## Yeni layihə: “UNEC kömək edir”

***Azərbaycan Dövlət İqtisad Universiteti və Beynəlxalq Avrasiya Mətbuat Fondunun birgə təşkilatçılığı ilə yeni layihə başlayıb. Layihə çərçivəsində ilk olaraq Tərtər rayonunda əlilliyi olan bir çox uşaqlar üçün müxtəlif əyləncələr və təlimlər təşkil olunub.***

UNEC Tələbə Həmkarlar İttifaqı Komitəsinin fəal tələbələri və UNEC İnklüziv Təhsil Mərkəzinin koordinatoru Sevinc Məhsimova 2020-ci il 10-14 fevral tarixlərində Tərtər şəhərində yerləşən Avrasiya Təlim Mərkəzində maraqlı təlimlər, görüşlər keçiriblər. İlk təlim İngilis dili və İdman dərsləri olub. UNEC-in tələbələri qrup halında bölünərək dərslərə giriblər. Tələbələr uşaqlara həm bilik öyrədib, həm də onlarla əyləniblər.

Səfər zamanı Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovla da görüş olub. Sonra UNEC tələbələri aprel döyüşlərində şəhid olan Nicat İsgəndərovun ailəsinə baş çəkiblər. Daha sonra isə şəhidimizin məzarı ziyarət olunub.

12-13 fevral tarixlərində isə Tərtər rayonunun cəbhəyanı kəndlərində yerləşən məktəblərində təhsil alan şagirdlərlə görüşlər keçirilib. Bildirilib ki, bundan sonra həmin təhsil ocaqlarının şagirdlərinə həm dərs ləvazimatı, həm də tədris prosesi ilə bağlı lazımi dəstək göstəriləcək.

UNEC tələbələri, eyni zamanda Avrasiya Kredit Fondunun işi ilə maraqlanıblar. Nümayəndə heyəti fondun Tərtər rayonunda yaşayan ailələrə göstərdiyi dəstəklə tanış olub, kredit sistemi ilə bağlı təlim keçib.

Yeni layihə: “UNEC kömək edir”

## UNEC inklüziv təhsil sahəsində beynəlxalq seminar keçirib

***UNEC-in 90 illik yubileyi və UNEC İnklüziv Təhsil Mərkəzinin yaradılmasının 5 illiyi münasibətilə "İnklüziv ali təhsildə 3N: "Nəyi bilməliyik?", "Nə etməliyik?" və "Nə edə bilərik?" mövzusunda beynəlxalq onlayn seminar keçirilib.***

Seminarda millət vəkili, Azərbaycan Respublikası Xüsusi Olimpiya Komitəsinin prezidenti Fazil Mustafa, Moskva Dövlət Humanitar İqtisad Universitetinin rektoru Vaqif Bayramov, Türkiyənin Qlobal Əngəllilər Fondunun təsisçisi və prezidenti Necdet Öztürk, Makedoniya Universitetinin Təhsil və Sosial Siyasət Departamentinin rəhbəri, dosent Lefkothea Kartasidou, eləcə də nazirlik, dövlət qurumları, yerli və xarici ali təhsil müəssisələrinin nümayəndələri iştirak ediblər.

UNEC İnklüziv Təhsil Mərkəzinin koordinatoru Sevinc Məhsimovanın moderatorluğu ilə keçirilən onlayn seminarda inklüziv təhsil və onun təşkili, qarşıya çıxan problemlər və onların həlli yolları, inklüziv təhsildə istifadə edilən rəqəmsal texnologiyalar, kitabxana xidmətinin təşkili, əlilliyin növləri (nozologiyalar) mövzuları ətrafında müzakirələr aparılıb.

S.Məhsimova iştirakçılara UNEC İnklüziv Təhsil Mərkəzi barədə ətraflı məlumat verib, fiziki məhdudiyyətli gənclərin ali təhsilə inteqrasiyası üçün universitetdə inklüziv təhsil mühitinin yaradıldığını vurğulayıb. Bildirib ki, bu mühit təhsilin hamı üçün əlçatan olmasını təmin etməklə yanaşı, sosial bərabərliyin qorunmasına, fiziki məhdudiyyətli gənclərin öz potensiallarını nümayiş etdirə bilməsi və təhsil ehtiyaclarının ödənilməsinə şərait yaradır.

Ölkədə ilk dəfə olaraq inklüziv ali təhsildə bakalavr pilləsi üzrə UNEC ilə Moskva Dövlət Humanitar İqtisad Universiteti (MDHİU) arasında ikili diplom proqramının reallaşdırılması seminar iştirakçıları tərəfindən yüksək qiymətləndirilib.

Millət vəkili Fazil Mustafa əlilliyi olan uşaqların və gənclərin təhsil və idman prosesi vasitəsilə sosiallaşması istiqamətində Xüsusi Olimpiya Komitəsinin gördüyü işlərdən danışıb. Millət vəkili inklüziv təhsil sahəsində cəmiyyətdə maarifləndirmə işinin daha da gücləndirilməsinin, təhsil müəssisələrinin müvafiq infrastrukturlarla təmin edilməsinin, eləcə də əlilliyi olan gənclərin ali təhsilə psixoloji hazırlığının vacibliyini vurğulayıb.

Seminarda Regional İnkişaf İctimai Birliyinin inklüziv təhsil üzrə mütəxəssisi Fərid Süleymanov "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" mövzusunda çıxış edib.

Makedoniya Universitetin Təhsil və Sosial Siyasər departamentinin rəhbəri dosent Lefkothea Kardasidou təmsil etdiyi universitetin əlil tələbələrlə bağlı həyata keçirdiyi yeniliklərdən danışıb.

Türkiyənin Qlobal Əngəllilər Fondunun təsisçisi və prezidenti Necdet Öztürk inklüziv təhsilin əsas xüsusiyyətlərindən danışıb. Əlillərin təhsil hüquqlarının qorunmasının vacibliyini vurğulayan N.Öztürk, bu sahədə dünyanın qabaqcıl universitetlərinin təcrübəsindən faydalanmağı tövsiyə edib, beynəlxalq standartları açıqlayıb.

Xəzər Universitetin Psixologiya şöbəsinin koordinatoru, Psixloji xidmət Mərkəzinin rəhbəri Mələk Kərimova postpandemiya mərhələsində bütün sahələrdə rəqəmsal texnologiyalardan istifadənin qaçılmaz olduğunu diqqətə çatdırıb, bu texnologiyaların inklüziv təhsil mühitində tətbiqinin faydalarından danışıb.

UNEC Rəqəmsal iqtisadiyyat və İKT kafedrasının dosenti Təranə Əliyevaya təhsildə rəqəmsal texnologiyaların istifadə olunmasının vacibliyini bildirərək, əlilliyi olan şəxslər üçün təhsil prosesində istifadə olunan rəqəmsal texnoloji yeniliklərdən söz açıb.

UNEC 24/7 Kitabxananın rəhbəri, elektron kitabxana mütəxəssisi Arzu Məmmədova inklüziv kitabxana xidmətlərinin xüsusiyyətlərini açıqlayıb.

Beynəlxalq tədbirdə inklüziv təhsil imkanlarının artırılması, əlilliyi olan şəxslərin inklüziv təhsilə cəlb olunması, inkluziv təhsildə pedaqoq və psixoloqların rolu və digər mözvularda fikir mübadiləsi aparılıb, təkliflər səsləndirilib.

UNEC inklüziv təhsil sahəsində beynəlxalq seminar keçirib

## UNEC-90: İnklüziv təhsil inklüziv cəmiyyətə gedən yoldur

*AZƏRTAC*

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin təhsil sistemləri sosial dəyişikliklərə uyğun yeni təhsil konsepsiyaları hazırlayır və texnologiyalar tətbiq edirlər. Prioritet sahələrdən biri vətəndaşların bərabər təhsil hüquqlarının təmin olunmasına əsaslanan inklüziv təhsildir. Müasir dövrdə inklüziv təhsil dünyada mütərəqqi təhsil sistemi kimi qəbul edilib. İnklüziv təhsilə keçid məsələsinə elmi yanaşma və təhsil zəncirində bütün xalqların iştirakı zəruri istiqamətlərdir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) İnklüziv Təhsil Mərkəzinin koordinatoru Sevinc Məhsimovanın “UNEC-90: İnklüziv təhsil inklüziv cəmiyyətə gedən yoldur!” sərlövhəli məqaləsində əksini tapıb.

Məqalədə qeyd olunur ki, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) son illər ölkənin və regionun qabaqcıl ali təhsil ocağı kimi inklüziv təhsilin inkişafında da nümunəvi addımlar atır. Humanist strategiyasına əsaslanaraq, UNEC-də əlilliyi olan gənclərin təhsil imkanları daha da yaxşılaşdırılır. Xatırladaq ki, 2013-cü ildə Azərbaycan Dövlət İqtisadi Universiteti Xəzər Universitetinin koordinatoru olduğu "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" adlı Tempus layihəsinə tərəfdaş olaraq qoşulub. Azərbaycan Dövlət İqtisad Universiteti Elmi şurasının 2015-ci il 2 oktyabr tarixli qərarı ilə UNEC İnklüziv Təhsil Mərkəzi yaradılıb. Mərkəz yarandıqdan sonra 5 il müddətində ali təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud olan tələbələrin sayı 3 dəfə artıb. Hazırda UNEC-də 62 əlilliyi olan tələbə təhsil alır. UNEC İnklüziv Təhsil Mərkəzinin əsas məqsədi ali təhsil müəssisələrində əlilliyi olan tələbələr üçün təhsil imkanlarının artırılmasından və onların təhsilə tam inteqrasiya edilməsidir. Mərkəz öz məqsədlərinə nail olmaq üçün əsasən bu vəzifələri həyata keçirir: əlilliyi olan tələbələrin təhsil imkanları və resursları ilə təmin edilməsi, bu tələbələrin təhsilə motivasiyası və cəlb edilməsi üçün imkanlar yaradılması, əlilliyi olan tələbələr üçün könüllülük əsasında həyata keçirilən təlim kurslarının təşkili, eyni profilli mərkəzlər ilə təcrübə mübadiləsinin həyata keçirilməsi, cəmiyyətin müxtəlif təbəqələri arasında əlillik barədə maarifləndirmə işinin aparılması.

Bütün bunlarla yanaşı, universitet rəhbərliyinin dəstəyi ilə İnklüziv Təhsil Mərkəzi UNEC-də təhsilin müvafiq formasının innovativ inkişafı istiqamətində tədbirlər həyata keçirir. Məsələn, inklüziv təhsil üzrə tədris və təlim modullarının hazırlanması, tədris materiallarının təkmilləşdirilməsi, professor-müəllim və inzibati heyətin bacarıqlarının artırılması, UNEC-də təhsil alan tələbələrə inklüziv təhsil modulları üzrə təlimlər keçirilməsi, müəllimlər üçün fərdi tədris planlarının tərtibi, tətbiqi və qiymətləndirilməsi ilə bağlı təlimatlar hazırlanması bu qəbildən olan tədbirlər sırasındadır. Həmçinin universitetdə fəaliyyət göstərən bütün strukturların daxil olduğu inklüziv təhsil şəbəkəsinin yaradılması, eləcə də inklüziv təhsil sahəsində mövcud siyasət və qanunvericiliyin təkmilləşdirilməsi üzrə müəyyən təkliflər verilməsi, inklüziv təhsil sahəsində ictimai maarifləndirmə qeyd olunan tədbirlər sırasındadır.

UNEC İnklüziv Təhsil Mərkəzi yarandığı ilk gündən Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yerli və xarici ali təhsil müəssisələri, qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlarla yaxından əməkdaşlıq edir və birgə tədbirlər həyata keçirir. Bu tədbirlərdən bəzilərini ölkədə UNEC-in "bir ilkə atdığı imza" olaraq qəbul etmək olar.

2016-cı ilin noyabrında UNEC ilə Moskva Dövlət Humanitar-İqtisadiyyat Universiteti arasında əməkdaşlıq sazişi imzalanıb. Azərbaycan–Rusiya Ali Təhsil Müəssisələri Assosiasiyasının "Təhsil, elm və mədəniyyət sahəsində Rusiya – Azərbaycan əməkdaşlığının vəziyyəti və perspektivləri" mövzusunda təşkil etdiyi konfrans çərçivəsində imzalanan saziş iki universitet arasında inklüziv təhsil sahəsində əməkdaşlığın yaradılmasını nəzərdə tutur. Saziş UNEC-in əlilliyi olan şəxslərin ali təhsilə cəlb olunması, bu sahədə müvafiq infrastrukturun yaradılması və tədris prosesinin məzmununun uyğunlaşdırılması sahəsində qeyd olunan Rusiya universitetinin təcrübəsindən faydalanması üçün hüquqi baza yaradır. Ayrıca bu sazişlə Azərbaycanda ilk dəfə inklüziv ali təhsildə ikili diplom proqramı həyata keçirilib.

2018-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin təşkil etdiyi "İnklüziv ali təhsil: beynəlxalq trendlər və UNEC təcrübəsi" mövzusunda beynəlxalq konfransda xüsusi qayğıya ehtiyacı olan insanlar üçün inklüziv təhsil modelinin yaradılması ilə bağlı dövlətin həyata keçirdiyi islahatlar və bu sahədə aparılan işlər müzakirə edilib. Elə həmin il UNEC, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Əlil Təşkilatları İttifaqının birgə təşkilatçılığı ilə əlilliyi olan gənclər üçün əmək yarmarkası keçirilib. Tədbirin keçirilməsində əsas məqsəd "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" və "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə" dövlət proqramları çərçivəsində sağlamlıq imkanları məhdud şəxslərin təhsili üçün maneəsiz mühit yaradılması və onların məşğulluq imkanlarının genişləndirilməsi olub. Əlilliyi olan şəxslər üçün ilk dəfə təşkil olunan bu yarmarkada 47 özəl şirkət tərəfindən 160-dan çox vakansiya təqdim edilib. Bu, xüsusən əlilliyi olan gənclər üçün təşkil edilən ilk əmək yarmarkası idi. Tədbir, həmçinin ölkədə istedadlı ali təhsilli əlilliyi olan gəncləri önə çıxardı və cəmiyyətə çağırış etmiş oldu. Həmin tədbirdən sonra işəgötürənlər tərəfindən əlilliyi olan gənclərə fərqli yanaşma müşahidə olunur. Belə ki, təşkil olunan yarmarkadan sonra 104 nəfər sağlamlığı məhdud gənc daimi işlə təmin olundu. UNEC İnklüziv Təhsil Mərkəzi əlilliyi olan tələbələrin məşğulluqla bağlı məsələlərin həlli yolunu araşdırmaqda davam edir. Belə ki, SOCAR AQŞ, Gilan Holdinq, "Veysəloğlu" və "Deloitte Azerbaijan" şirkətləri məzunları daimi işə qəbul edib. Son iki ildə 12 nəfər əlilliyi olan UNEC məzunu işlə təmin olunub.

UNEC İnklüziv Təhsil Mərkəzi fəaliyyətini gücləndirmək məqsədilə respublikanın bir neçə qurum və təşkilatları ilə memorandumlar imzalayıb. Belə ki, əlilliyi olan gənclərin həyata daha asan inteqrasiyası üçün birgə tədbirlərin təşkili məqsədilə 2018-ci ildə Əlil Təşkilatları İttifaqı ilə iş birliyinə başlanılıb. UNEC tələbələrin tədris prosesində yaranan

hər hansı psixoloji, loqopedik və digər problemlərinin aradan qaldırılması üçün “Loqos” Psixoloji və Nitq İnkişafı Mərkəzi ilə 2019-cu ilin dekabrın 13-də saziş imzalayıb.

Vurğulamaq lazımdır ki, UNEC-in əlilliyi olan tələbələri universitetin bütün tədbirlərində - konfranslarda, seminarlarda, görüşlərdə, eləcə də Erasmus beynəlxalq tələbə mübadilə proqramlarında iştirak edirlər. Onlar sosial həyatlarında da fəaldırlar. Məsələn, mütəmadi olaraq UNEC-in tələbə təşkilatlarının dəstəyi ilə kino, teatr, konsertlər və digər sosial-mədəni tədbirlərdə iştirak edirlər. UNEC İnklüziv Təhsil Mərkəzi vaxtaşırı təlimlər həyata keçirir. Təlimlər əlilliyi olan şəxslərin hüquq və imkan bərabərliyi prinsiplərini izah etmək, əlilliyi olan insanların qarşılaşdığı maneələri müəyyənləşdirmək və onları aradan qaldırmağın yollarını tapmaq və sair mövzuları əhatə edir.

Qısa müddətdə yaradılmasına baxmayaraq UNEC İnklüziv Təhsil Mərkəzi təcrübəli kadrları, maddi-texniki bazası və uğurlu fəaliyyət planı ilə böyük layihələrə imza atır və inklüziv təhsilin inkişafına töhfə verir.